# ÇALPAPAQ

D.Məmmədbəyovun not yazısı

**Allegro moderato**




## Variant

S.Rüstəmovun not yazısı

**Allegro moderato**




Mən gedirəm, səni kimə tapşırım?
Ağlaya-ağlaya qal innən belə.

Nə müddətdir əmanətin məndədir.
Saxlaya bilmirəm, al innən belə.

N ə q ə r a t:

Hey, hey, çalpapaq,
Hey, hey, gülyanaq,
Neçin oldun bidamaq?

## Mətnin variantı

Sevgisiz yaşamaq bir an olarmı?
Dünyada eşqisiz insan olarmı?
Mən səni sevmişəm xəbərin varmı?

Könül sevməz özgələri, yadları
Mən pozmaram öz əhdimi, ilqarı
Bircə dəfə sən də bizə gəl barı.

Gəlin gedək bizim bağa, xəzələ,
Gözüm düşüb sənin kimi gözələ,
Bir könül ver, sevgimizi təzələ.

N ə q ə r a t:

Ey, ey, çalpapaq,
Ey, ey, gülyanaq,
Neçin oldun bidamaq.